RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 149 (8465) CÜMƏ AXŞAMI, 30 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Prezidentin gündəliyində vətəndaşların sağlamlığı birinci olaraq qalır

## İlham Əliyevin Qobustan və İsmayıllı rayonlarına səfəri çərçivəsində 2 modul tipli xəstəxananın açılışı bunu bir daha təsdiqləyir

**Dünən Prezident İlham Əliyev Şimal-Qərb bölgəsinə səfər edib. Bu səfər zamanı dövlət başçısı Qobustan və İsmayıllı rayonlarında bir sıra mühüm obyektlərin açılış mərasimlərinə qatılıb. Öncə Qobustan rayonunda olan cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılışını edib.**

Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsinin yenidən qurulması layihəsi ilə də tanış olan dövlət başçısı İsmayıllının Basqal kəndində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "DOST Evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak edib. İsmayıllıya səfəri çərçivəsində Prezidentin iştirakı ilə Muğanlı-İsmayıllı -Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib. Daha sonra dövlət başçısı İsmayıllıda da koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılış mərasiminə qatılıb.

Prezidentin iki rayona səfəri çərçivəsində bir neçə sosial obyektin açılışı, "DOST Evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin təməlinin qoyulması əlbəttə ki, ilk növbədə cənab İlham Əliyevin məhz pandemiya ilə mübarizə dövründə həyata keçirdiyi uğurlu sosial siyasətinin əyani təzahürü kimi qiymətləndirilməlidir. Çünki qlobal böhranın digər ölkələr kimi Azərbayan iqtisadiyyatına da zərər vurmasına baxmayaraq ölkədə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulan sosial layihələrin heç biri təxirə salınmır. Hətta ötən illə müqayisədə bu il xalqın rifah halının yaxşılaşdırılmasına yönələn daha çox sosial layihə gerçəkləşməkdədir.

Qobustan və İsmayıllıda 2 modul tipli xəstəxananın, müxtəlif kənd və qəsəbələri birləşdirən yeni yolların açılışı bir daha göstərir ki, həm vətəndaşların sağlamlıqlarının qorunması Prezidentin gündəliyində birinci olaraq qalır, həm də ölkədaxili yolnəqliyyat infrastrukturunun yenidən qurulması və regionlarda əhaliyə göstərilən sosial xidmətin daha da asanladırılması ilə bağlı nəzərdə tutulan layihələr uğurla reallaşdırılır.

Hər zaman olduğu kimi cənab İlham Əliyev regionların sosial-iqtisadi inkişafı proqramları çərçivəsində görülən işlərin icrasının yekunları ilə şəxsən maraqlanır, yeni yaradılan müəssisələrin açılış mərasimlərinə qatılaraq xeyir-duasını verir, ictimaiyyət nümayəndələri ilə səmimi görüşlər keçirərək onların problemlərini dinləyir və aidiyyatı orqanlara ciddi tapşırıqlarını, göstərişlərini verir.

Aylardır dövlət COVID-19-la mübarizə istiqamətində çox mühüm tədbirlər görməkdədir. Məhz bunun nəticəsidir ki, bu gün ölkəmizdə virusla mübarizədə müsbət dinamika müşahidə olunmaqdadır. Azərbaycan dövlətinin koronavirus pandemiyasının yayıldığı ilk günlərdən onunla mübarizə istiqamətində atdığı çox mühüm addımlar sırasında modul tipli xəstəxanaların yaradılması böyük əhəmiyyət daşıyır. Yeni modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır.

Dövlət başçısının müvafiq tapşırıqlarına əsasən, ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanılıb ki, onlardan da bir neçəsinin artıq açılışı olub.

Qobustan və İsmayıllıda modul tipli xəstəxanaların açılışından sonra ölkədə bu tip müalicə mərkəzlərinin sayı 8-ə çatdı. Hazırda üçü Bakıda olmaqla, Sumqayıtda, Gəncədə, və Abşeron rayonunda modul tipli xəstəxanalar fəaliyyətdədir.

Səfər çərçivəsində İsmayıllıda təməli qoyulan "DOST Evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzi də bir daha Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfinin dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsi olduğunu təsdiqlədi.

Dövlət başçısı yeni yolların da açılışını edərək xeyir-duasını verdi. Ümumiyyətlə, ölkəmizdə yol-nəqliyyat infrastrukturunun yenidən qurulması işi uğurla davam etdirilir. Əgər, əvvəllər ən müasir standartlara uyğun beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması diqqət mərkəzində idisə, indi yerli əhəmiyyətli yolların inşasına da xüsusi diqqət yetirilir.

Cənab İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq ölkəmizin demək olar ki, bütün yaşayış məntəqələrində mövcud avtomobil yolları əsaslı təmir edilir və ya yenidən qurulur. Şəhər və rayon mərkəzlərini qəsəbə və kəndlərlə birləşdirən yollar, eləcə də qəsəbə və kəndlərin daxili yolları yenidən tikilir.

Bir sözlə, bütün bunlar bir daha təsdiqləyir ki, qlobal böhran dövründə əhalisinin sağlamlığının qorunması ilə yanaşı sosial müdafiənin təmin edilməsi Prezidentin siyasətinin prioritetidir.

*"Azərbaycan"*

# Azərbaycan-Türkiyə genişmiqyaslı birgə hərbi təlimləri başlayıb



Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq bu gündən ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri başlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, birgə təlimlərdə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edilib.

Plana əsasən təlimlər avqustun 1-dən 5-dək quru qoşunlarının da cəlb edilməsi ilə Bakıda və Naxçıvanda, hərbi aviasiya vasitələrinin iştirakı ilə isə iyulun 29-dan avqustun 10-dək Bakı, Naxçıvan, Gəncə, Kürdəmir və Yevlax şəhərlərində keçiriləcək.

# Ermənistana məxsus növbəti taktiki PUA məhv edilib



İyulun 29-da axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin növbəti PUA-sı Hava Hücumundan Müdafiə bölmələri tərəfindən dərhal aşkarlanaraq məhv edilib.

# Düşmən atəşkəsi 65 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan, snayper tüfənglərindən və 60 millimetrlik minaatanlardan da istifadə etməklə atəşkəs rejimini 65 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Mosesqex, Çinari və Ayqedzor kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağdam, Ağbulaq, Muncuqlu, Gədəbəy rayonunun Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Təhsil sistemimiz dünya standartlarına cavab verməlidir

## Dövlət başçısı bununla bağlı qarşıya mühüm vəzifələr qoydu

**Ulu Öndər Heydər Əliyev xalqın bugünü və gələcəyinin, həmçinin dövlətin bütün sahələrdə inkişafının istiqamətlərində hansı amillərin daha çox rol oynadığını bildirərkən deyib: "Təhsil millətin gələcəyidir". Prezident İlham Əliyev isə yeni təhsil naziri təyin olunan Emin Əmrullayevi videoformatda qəbul edərkən xüsusi vurğuladı ki, təhsildə islahatlar dərinləşməlidir.**

Son illər ölkədə digər sahələrdə olduğu kimi, təhsildə də həyata keçirilən bir sıra layihələr onun inkişafına stimul yaradıb. Bunun nəticəsidir ki, təhsilin maddi-texniki bazasının böyük dərəcədə yenilənməsi artıq həll olunub. 3500-dən çox məktəb yenidən tikilib və əsaslı təmir edilib. Ölkəmizin mövcud ali məktəblərinin əksəriyyəti müasir standartlara cavab verir. Bütün bunlara baxmayaraq burada həllini gözləyən problemlər də az deyil. Dövlət başçısının da xüsusi qeyd etdiyi kimi, dağ və ucqar kəndlərdə modul tipli məktəblərin tikintisi yaxın iki il müddətinə yekunlaşmalıdır. Bir çox ucqar kəndlərdə bu layihə dövlət büdcəsinin xətti ilə icra edilir və onların tamamlanması 2021-2022-ci illərdə başa çatmalıdır.

Bütün bunlar təhsil sahəsində mühüm məsələlərdir. Ona görə də Azərbaycan Prezidenti yeni Təhsil nazirini videoformatda qəbul edərkən bildirdi ki, bunlarla paralel olaraq, təhsilin keyfiyyəti də yüksəlməlidir. Əsas məsələlərdən biri müəllimlərin peşəkarlığıdır.

### Müəllimlərin əməkhaqları orta hesabla 2 dəfə artıb

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, son illər Azərbaycanda müəllim peşəsinə ənənəvi hörməti bərpa etmək üçün çox böyük işlər görülüb: "Dövlət xətti ilə həyata keçirilən xərclər bu sahədə xüsusi rol oynayır. 2015-2018-ci illərdə yeni yanaşma tətbiq olunmuşdur - müəllimlərin diaqnostik qiymətləndirilməsi keçirilmişdir. Bu diaqnostik qiymətləndirmədən uğurla keçmiş müəllimlərin əməkhaqları orta hesabla 2 dəfə artırılmışdır. Əlbəttə ki, bu, müəllimlər üçün əlavə bir stimul idi. Eyni zamanda, müəllim peşəsini seçənlərin də sayı buna uyğun şəkildə artdı və bu da məni çox sevindirir. Çünki bir neçə il bundan əvvəl müəllim olmaq istəyənlərin sayı kifayət qədər az idi. Ancaq, son bir neçə ildə müəllim peşəsinə maraq artıb. Çünki müəllimlər indi daha yaxşı maaş alırlar.

*Ardı 4-cü səh.*



# Əhalinin sağlamlığı və təhlükəsizliyi etibarlı təmin olunur

## COVID-19-a qarşı düzgün strategiya ölkəmizdə pandemiyanın fəsadlarını xeyli azaldır

Qlobal pandemiya Yer üzərində tüğyan etməkdə davam edir. Artıq dünyanın bir çox ölkəsi həyəcan təbili çalaraq virusla mübarizədə çarəsiz duruma düşdüklərini, COVID-19-un yenidən yoluxma və ölüm sayını artırdığını bildirirlər.

Buna səbəb isə əhalinin bir qisminin sosial məsafə, maska taxmaq, gigiyena şərtlərinə əməl etmək kimi həyati əhəmiyyət daşıyan qaydalara məsuliyyətsiz yanaşmasıdır.

### Səhiyyə infrastrukturu qısa zamanda hazırlıq vəziyyətinə gətirildi

Dünyanın bir parçası olan Azərbaycanda da yeni növ koronavirusa qarşı mübarizə davam edir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq pandemiyanın qarşısının alınması üçün ilk zamandan etibarən qətiyyətli və çevik addımlara start verilib. Ölkəmizdə qlobal böhranın aradan qaldırılması istiqamətində görülən işlər infeksiyanın nəzarət altında saxlanmasına, əhalinin təhlükəsizliyinin və sağlamlığının etibarlı təmininə yönəlib.

*Ardı 4-cü səh.*

# Erməni Qərb ölkələrində də ermənidir

## Mənfur tayfa iç üzünü dünyaya nümayiş etdirir

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllolunmamış qalması beynəlxalq ictimaiyyəti artıq ciddi narahat edir.

Erməni işğalçıları və onlara havadarlıq edən dairələr elə hesab edirdilər ki, münaqişəni donmuş vəziyyətdə qoruyub saxlaya biləcək və bu minvalla geosiyasi maraqlarının reallaşmasına nail olacaqlar. Lakin son günlərin hadisələri göstərir ki, erməni həyasızlığı heç bir hədd-hüdud, çərçivə tanımır və havadarların özünü də hədəfə alır.

Ermənistanın Azərbaycan torpaqlarını uzun illərdir işğal altında saxlaması və törətdiyi saysız-hesabsız cinayətlərə görə hələ də cəzasız qalması onda belə bir təsəvvür yaratmışdı ki, havadarlarına arxalanaraq azğınlığını sonsuzluğadək davam etdirəcək, hər hansı maneə ilə qarşılaşmayacaq. İrəvan rejimi və diaspor elə hesab edirdi ki, hər hansı təcavüzkarlıq əməlinə görə əvvəllər olduğu kimi ciddi müqavimətlə qarşılaşmayacaq, havadarlarının himayəsi altında xəbis niyyətlərini gerçəkləşdirəcək. Həyasızlıq o həddə gəlib çatmışdı ki, Ermənistan Azərbaycan ərazisinin 20 faizini zəbt etməklə kifayətlənməyib, yeni-yeni torpaqlar işğal etməyi strateji vəzifə kimi qarşıya qoymuşdur.

Lakin Tovuz döyüşləri göstərdi ki, işğalçının planları uğursuzluğa məhkum olacaq. İrəvan rejimi düşünürdü ki, münaqişə zonasından uzaqda, dövlətlərarası sərhəddə təxribat törətməklə hərbi müttəfiqlərini Azərbaycanla qarşıdurmaya cəlb edib istəyinə nail olacaq. 2016-cı il Aprel döyüşlərində olduğu kimi, bu dəfə də alınmadı. Azərbaycan Silahlı Qüvvələri düşmənə layiq olduğu cəzanı verib onu yerində oturtdu. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) susdu, Ermənistanın hərbi avantürasına dəstək vermədi. Ermənistan cəmiyyəti cin atına mindi: guya ki, KTMT-nin yeganə vəzifəsi Azərbaycana qarşı erməni təcavüzünü dəstəkləməkdən ibarətdir.

Erməni diasporu da həyasızlıqda İrəvan rejimindən geri qalmır. Amerika, Avropa ölkələrində yüz illərdir yaşayıb təşkilatlanmış imkanlı erməni icmaları hesab edirdilər ki, sığındıqları məmləkətlərdə meydan sulamaq, yerli qanunvericiliyi saya salmamaq hüququna malikdirlər. Amma yeni-yeni formalaşan, hələ kifayət qədər təşkilatlanmamış Azərbaycan diasporu meydana çıxanda vəziyyət ermənilərin gözləmədiyi şəkildə dəyişdi. Ayrı-ayrı ölkələrdə Azərbaycan icmasının nümayəndələri Ermənistanın ölkəmizə silahlı təcavüzünə etiraz əlaməti olaraq yerli qanunlara riayət etməklə dinc nümayişlər keçirəndə ermənilərin zorakı müdaxiləsi ilə üzləşdilər.

*Ardı 5-ci səh.*

# Qobustan və İsmayıllı rayonları əsl inkişaf dövrünü yaşayır

## Ulu Öndər Heydər Əliyevin xatirəsinə ehtiram



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Qobustan rayonuna səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Qeyd edək ki, regionların inkişafı ilə əlaqədar icra olunan dövlət proqramları, həmçinin Prezident İlham Əliyevin rayonlara səfərləri zamanı əhali tərəfindən qaldırılan məsələlərə həssas münasibət Qobustan rayonunun iqtisadi, sosial və mədəni həyatına da təsirsiz ötüşməyib. Son illər ölkənin bütün regionları kimi, bu rayon da özünün əsl inkişaf dövrünü yaşayır. İqtisadiyyatın şaxələndirilməsi, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür.

## Prezident İlham Əliyev Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun bir hissəsinin yenidən qurulması layihəsi ilə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsinin yenidən qurulması layihəsi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov layihə üzrə görüləcək işlər barədə dövlət başçısına məlumat verdi. Bildirildi ki, respublikanın mühüm turizm bölgələrinə gedən və ilk dəfə ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə salınmış bu yolun yenidən qurulması Prezident İlham Əliyevin bundan əvvəlki səfəri zamanı verdiyi tapşırığa əsasən layihələndirilib. Ümumi uzunluğu 85,6 kilometr olan bu yol yenidənqurma nəticəsində 9 kilometr qısalacaq. Yol genişləndirilərək 4 hərəkət zolağından ibarət olacaq. Ağsuçay çayı üzərində uzunluğu 634 metr olan yeni körpü tikiləcək.

Prezident İlham Əliyev yolun uzunömürlü və davamlı olması, sürüşkən ərazilərdə tikinti işlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı tapşırıqlarını verdi.



## Üç korpusdan ibarət, 100 palatası və 200 çarpayı yeri olan yeni modul tipli xəstəxana istifadəyə verildi

**İyulun 29-da Qobustanda koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlət başçısına modul tipli xəstəxanada yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, üç korpusdan ibarət, 100 palatası və 200 çarpayı yeri olan bu xəstəxana kompleksi mərkəzləşdirilmiş Oksigen Generator Sistemi ilə, həmçinin mərkəzləşdirilmiş havalandırma sistemi ilə təchiz olunub. Burada orta ağırlıqlı simptomları olan infeksion koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün zəruri şərait yaradılıb. Ağır simptomları olan xəstələrin qəbulu üçün əlavə avadanlıqlarla təchiz edilməklə müvafiq təkmilləşdirilmə işləri görülür.

Bu korpus zərurət olmadıqda - yəni, pandemiya ilə mübarizə başa çatdıqdan sonra asanlıqla digər sahələrə köçürülə və başqa məqsədlər üçün - məsələn, hərbi hissələr, sərhəd xidməti, tədris və ya fövqəladə hallar, yataq, məişət xidməti və sair üçün istifadə edilə bilər.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, pandemiyanın qarşısının alınması, əhalinin sağlamlığının qorunması məqsədilə həyata keçirilən önləyici kompleks tədbirlər çərçivəsində ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanılıb. Mayın 7-də Bakıda 1 saylı Kliniki Tibbi Mərkəzdə ilk, iyunun 9-da 28 saylı Bilgəh qəsəbəsində Birləşmiş Şəhər Xəstəxanasının, 1 saylı Sumqayıt Şəhər Xəstəxanasının və Abşeron rayonunun Saray qəsəbə xəstəxanasının, iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusları, iyulun 6-da Xətai rayonunda modul tipli hospital istifadəyə verilib. Növbəti modul tipli infeksion xəstəliklər korpusu Qobustan rayonunda quraşdırılıb. Bu komplekslər rayon mərkəzi xəstəxanalarının yaxınlığında quraşdırılaraq onlara təhkim olunur ki, bu da koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi koordinasiyanı təmin edir.











# Qobustan və İsmayıllı rayonları əsl inkişaf dövrünü yaşayır

## Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin İsmayıllıdakı abidəsini ziyarət edib








**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da İsmayıllı rayonuna səfəri zamanı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Ulu Öndərin abidəsi önünə gül dəstəsi qoyub.

Rayonda görülən abadlıq işləri, həyata keçirilən layihələr barədə Prezident İlham Əliyevə məlumat verən İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı **Nahid Bağırov** dedi:

- Cənab Prezident, cəlb etdiyimiz bir investisiya barədə Sizə məlumat vermək istərdim. İvanovka kəndində böyük karamel fabriki və un məmulatları fabriki yaradılıb. Artıq xeyir-duanızı gözləyirik.

**Prezident İlham Əliyev:** Kəndin içindədir?

**Nahid Bağırov:** Bəli, kəndin içindədir, gözəl dizaynı var. Burada 200-dən çox insan işləyir.

**Prezident İlham Əliyev:** Konfet istehsal edirlər?

**Nahid Bağırov:** İris, konfet və un məmulatları. Cənab Prezident, İvanovka kəndində taxıl üzrə məhsuldarlıq keçən illə müqayisədə 2 dəfə yarım artıb. Keçən il hər hektardan 11 sentner idi, bu il artıq 28 sentnerdir.

**Prezident İlham Əliyev:** Nəyin hesabına? Yeni texnologiyaların və texnikanın?

**Nahid Bağırov:** Yeni texnologiyaların, azotun və digər gübrələrin düzgün, vaxtında verilməsi hesabına.

**Prezident İlham Əliyev:** Prinsipcə orada 28 sentnerdən artıq ola bilər. Əgər orada suvarma layihələri icra olunarsa, onda məhsuldarlıq artar.

**Nahid Bağırov:** Qara torpaqları var.

**Prezident İlham Əliyev:** Ümumiyyətlə, İsmayıllının torpağı çox yaxşıdır, münbitdir. Bəs, orta məhsuldarlıq nə qədərdir?

**Nahid Bağırov:** Keçən il 35 sentner idi, bu il 36 sentnerə yaxın olacaq.

**Prezident İlham Əliyev:** Yaxşıdır. Bəs, digər işlər necədir?

**Nahid Bağırov:** Cənab Prezident, bundan başqa, "Coca-Cola" və "Efes" zavodları ilə danışıqlar aparırıq. Artıq gəliblər, geoloqlarımız araşdırıblar, demək olar ki, 80 faiz razılıq veriblər, pandemiya dövrünün qurtarmağını gözləyirik.

**Prezident İlham Əliyev:** Zavodun tikintisinə investisiya qoyacaqlar?

**Nahid Bağırov:** Bəli. "Coca-Cola" və "Efes" zavodları. Onlar bir qrup olduğu üçün istəyirlər ki, ikisi də bir yerdə olsun. Artıq yer də ayırmışıq.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Bu, yeni dayanacaqdır?

**Nahid Bağırov:** Bəli, cənab Prezident. Bunu ilk dəfə olaraq İsmayıllıda tətbiq etdik.

**Prezident İlham Əliyev:** Gözəldir.

**Nahid Bağırov:** Bundan şəhərimizdə üç yerdə qoymağı nəzərdə tutmuşuq. Həmçinin elektrobus da sifariş etmişik. Yeni dayanacaq səkkiz oturacaqlıdır. Bu, yerli məhsuldur, cənab Prezident.

**Prezident İlham Əliyev:** Bu, harada istehsal olunur?

**Nahid Bağırov:** Azərbaycanda, Balaxanıda, texnoparkda.

**Prezident İlham Əliyev:** Texnoparkda?

**Nahid Bağırov:** Bəli, cənab Prezident, icazə versəniz, bunun filialını İsmayıllıda açardıq. Sahibkar özü də istəyir.

**Prezident İlham Əliyev:** Əlbəttə, açın, həm buranı, həm də ətraf rayonları nəzərə alın. Düzdür, indi turizm yoxdur, amma karantin bitsin, hesab edirəm ki, daxili turizmlə bağlı yaxşı işlər görüləcək.

**Nahid Bağırov:** Artıq onunla da bağlı işlərə başlamışıq.

**Prezident İlham Əliyev:** Çox yaxşı.

**Nahid Bağırov:** Çox sağ olun, cənab Prezident.

## Prezident İsmayıllıda "DOST Evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin təməlini qoyub







İyulun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllının Basqal kəndində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "DOST Evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlət başçısına mərkəz barədə məlumat verdi.

Bildirildi ki, rayon əhalisinin böyük əksəriyyəti bölgə üçün ənənəvi olan kənd təsərrüfatı, eləcə də xalçaçılıq, toxuculuq, misgərlik, kəlağayı istehsalı və sair qədim sənətkarlıq növləri üzrə istehsal sahələrində çalışır. Eyni zamanda, rayonda işsiz və işaxtaranlar fəal məşğulluq proqramlarına da cəlb olunurlar.

Prezident İlham Əliyev mərkəzin təməlini qoydu.

Qeyd olundu ki, son 3 ildə İsmayıllıda 260 nəfər özünüməşğulluq proqramına cəlb edilərək proqram əsasında verilmiş mal və materiallar hesabına kiçik ailə müəssisələrini yaradıb. Bu il isə rayonda daha 126 ailənin bu proqram çərçivəsində kiçik təsərrüfatlarını yaratması üçün işlər aparılır. Tikiləcək "DOST Evi" əhalinin məşğulluğunun təmin edilməsində əhəmiyyətli rol oynayacaq.

## Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolu 2 min 800 nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirir

İyulun 29-da İsmayıllı rayonunda Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolun açılışında iştirak edib.

Dövlət başçısına məlumat verildi ki, 3,8 milyon manat investisiya xərci hesabına tikilmiş 8 kilometrlik yol 2 min 800 nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirir. Yolboyu bütün lazımi infrastruktur qurulub. Bu yolun tikintisi həmin kəndlərdə yaşayan əhalinin mənzil başına tez və rahat çatmasına, həmçinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının vaxtında bazarlara və digər satış məntəqələrinə çatdırılmasına əlverişli şərait yaradacaq.

Sonra dövlət başçısına Quşencə-Zoğallıq avtomobil yolunun tikinti layihəsi təqdim olundu.

Bildirildi ki, üç min nəfər əhalinin yaşadığı iki yaşayış məntəqəsini birləşdirən bu yolun tikintisi məqsədilə Azərbaycan Prezidentinin 2019-cu il 25 iyun tarixli Sərəncamına əsasən, 2,9 milyon manat vəsait ayrılıb və tikinti işləri başa çatıb. Uzunluğu yeddi kilometr olan bu yol yaşayış məntəqələri arasında və rayon mərkəzinə gediş-gəlişi xeyli asanlaşdırıb.

Prezident İlham Əliyevə bütövlükdə ölkə üzrə kənd yollarının tikintisi vəziyyəti barədə də məlumat verildi.







# Prezident İlham Əliyev İsmayıllıda modul tipli xəstəxananın açılışında iştirak edib

**İyulun 29-da İsmayıllıda koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlət başçısı xəstəxanada yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, modul tipli digər xəstəxanalarda olduğu kimi, bu səhiyyə ocağında da orta ağırlıqlı simptomları olan infeksion koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün hər cür şərait yaradılıb. Burada ağır simptomları olan xəstələrin qəbulu üçün əlavə avadanlıqlarla təchiz edilməklə müvafiq təkmilləşdirilmə işləri görülür. Üç korpusdan ibarət, 100 palatası və 200 çarpayı yeri olan bu xəstəxana kompleksi mərkəzləşdirilmiş Oksigen Generator Sistemi, həmçinin havalandırma sistemi ilə təchiz edilib.

❖ ❖ ❖

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 29-da Balakən, Şəki və Qəbələ rayonlarında da səfərdə olub.

Bu səfərlər barədə materiallar qəzetin növbəti nömrəsində dərc ediləcək.













# Əhalinin sağlamlığı və təhlükəsizliyi etibarlı təmin olunur

## COVID-19-a qarşı düzgün strategiya ölkəmizdə pandemiyanın fəsadlarını xeyli azaldır

*Əvvəli 1-ci səh.*

İntensiv və düzgün fəaliyyət sayəsində səhiyyə infrastrukturu qısa zamanda koronavirusla mübarizəyə başladı. Maska istehsalı müəssisəsinin açılması, yeni laboratoriyaların təcili olaraq alınıb ölkəmizə gətirilməsi və quraşdırılması COVID-19-la mübarizəyə təkan verdi. İndiyə qədər yeni koronavirusun aşkarlanması üçün 690 mindən çox test edilib.

Xəstələr dərmanlarla təchiz edilir, virusa yoluxanların effektiv müalicəsi üçün xarici ölkələrdən mütəxəssislər, həkimlər cəlb edilib.

Həmçinin qısa zamanda COVID-19 virusuna yoluxmuş şəxslərin müalicəsi ilə bağlı xəstəxanalar müəyyən edilib və 20-dən artıq xəstəxana, o cümlədən ən müasir standartlara cavab verən "Yeni Klinika" koronavirus xəstələrinin ixtiyarına verilib.

### Pandemiya ilə mübarizədə modul tipli xəstəxanalar müstəsna rol oynayır

Bölgələri də əhatə etməklə ölkədə 2000 çarpayılıq 10 modul tipli xəstəxananın quraşdırılmasına başlanıb və onlardan əksəriyyəti artıq istifadəyə verilib, gələcəkdə daha 10 modul tipli xəstəxananın quraşdırılması planlaşdırılır.

Ötən gün isə Qobustan və İsmayıllı rayonlarında koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxanaların açılışı oldu. Prezident İlham Əliyev açılışlarda iştirak edərək, xəstəxanalarda yaradılan şəraitlə tanış oldu.

Qeyd etməliyik ki, dövlətimizin pandemiya ilə mübarizə istiqamətində atdığı mühüm addımlar sırasında modul tipli xəstəxanaların inşasının müstəsna əhəmiyyəti var. Bu tip xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmədə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır.

### Pandemiyadan əziyyət çəkən insanlara dövlət tərəfindən böyük dəstək göstərilir

Pandemiyanın vətənimizdə qarşısının alınması istiqamətində görülən hərtərəfli tədbirlər öz bəhrəsini verir.

Dövlətimiz qlobal böhranın ölkəmizdə daha az hiss olunması üçün bütün istiqamətlərdə lazımi qabaqlayıcı tədbirlər görür. Karantin dövrü ərzində vətəndaşlara göstərilən maddi və sosial yardımlar bu xüsusda əhəmiyyətli rol oynayır. Pandemiyadan əziyyət çəkən insanlara dövlət tərəfindən çox böyük dəstək göstərilir. Bu dövr ərzində Azərbaycanda təqribən 5 milyona yaxın insan dövlət tərəfindən maddi dəstəklə əhatə olunub.

### Sanitar-epidemioloji vəziyyət təhlil edilərək lazımi qərarlar qəbul olunur

Dəqiq müəyyənləşdirilən strategiya COVID-19-la bağlı hazırda müşahidə etdiyimiz müsbət dinamikanın əldə olunmasına xidmət etdi.

Vaxtaşırı ölkədəki sanitar-epidemioloji vəziyyət təhlil edilərək lazımi qərarlar qəbul olundu. Və ölkə ərazisində karantin rejiminin 31 avqustadək uzadılması məqbul sayıldı. Həmçinin yoluxma riski yüksək bəzi şəhər və rayonlarımızda gələn ayın 5-dək sərt karantin rejimi tətbiq olundu.

Məhdudiyyətlərin tətbiqinin, karantinin sərtləşdirilməsinin faydasını isə qısa zamanda gördük. Belə ki, son zamanlar virusa yoluxma sayı kəskin şəkildə azalıb, sağalanların sayı isə gündəlik olaraq 600, bəzən isə 700 civarında olur.

Müşahidə olunan müsbət dinamika isə hər birimizə tezliklə karantin rejiminin yumşaldılmasına nail olacağımız hissi aşılayır. Neçə müddətdir səbirsizliklə gözlədiyimiz rayonlararası gediş-gəlişin bərpa olunacağı günün tezliklə yaxınlaşacağına ümid yaradır.

Amma hazırda da məsuliyyətsizlik nümayiş etdirənlər, qaydalara riayət edilməməsi səbəbindən yuxarıdakı gözləntilərimizin gecikməsi də baş verə bilər. Çünki hələ də ölkəmizdə yoluxma sayı yüksək hesab olunacaq həddədir. Xüsusilə rayonlarda yas yerlərində toplaşmalar kütləvi yoluxma ocaqları yaradır.

İki gün əvvəl, bu kimi arzuolunmaz hal Kürdəmir rayonunda da qeydə alınıb. Belə ki, rayonun Pirli kəndində 31 sakinin COVID-19 infeksiyasına yoluxması aşkarlanıb. Xəstələrin sayının artacağı isə istisna olunmur. Ehtimal olunur ki, həmin şəxslər yas mərasimində yoluxublar.

### Virusa yoluxmamaq üçün preventiv tədbirlərin şərtlərinə əməl edilməlidir

Baş infeksionist Cəlal İsayev bildirib ki, kəndlərdə bir-iki nəfər virus daşıyıcısının olması, digər kənd sakinlərinin də virusa yoluxmasına gətirib çıxarır. Eyni zamanda virus daşıyıcısı bilmədən evdəki yaxın insanlarını, qohumlarını da yoluxdura bilir. Bu da kənd yerində kütləvi yoluxmalara gətirib çıxarır.

Baş infeksionist söyləyib ki, bu gün epidemioloji situasiya bayram vaxtı rayonlara, kəndlərə getməyə imkan vermir. Çünki hələ də bizdə yoluxma faktları yüksəkdir. Bu epidemioloji vəziyyətin gərgin olaraq qalmasına baxmayaraq, müəyyən stabillik də var. Son vaxtlar sağlam insanların sayı yoluxanlardan çoxdur. Ancaq yenə də təhlükə sovuşmayıb: "İnsanlar yaşayış yerlərini vacib olmadığı təqdirdə tərk etməməli, karantin rejiminə əməl olunmalıdır. Hazırkı vəziyyətdə yoluxma yüksək olduğundan vətəndaşlarımız ehtiyat tədbirlərini əldən verməməlidirlər".

Dövlətimiz bütün imkanlarını qlobal pandemiyaya qarşı səfərbər edib, infeksiyanın nəzarət altında olması, idarəolunan səviyyəyə çatdırılması, lokallaşdırılması və tamamilə yox edilməsi istiqamətində zəruri tədbirlər görür.

Vətəndaşlar da bu istiqamətdə hökumətə dəstək verərək, şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara ciddi yanaşmalı, özünü və yaxınlarını virusa yoluxmadan maksimum qorumaq üçün preventiv tədbirlərin şərtlərinə əməl etməlidirlər.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Təhsil sistemimiz dünya standartlarına cavab verməlidir

*Əvvəli 1-ci səh.*

Onların cəmiyyətdə hörməti yüksək səviyyədədir. İndi onlar gözəl, təmir edilmiş, yenidən tikilmiş məktəblərdə, ali məktəblərdə çalışırlar. Mən hər il tədris ilinin ərəfəsində yeni tikilmiş və təmir edilmiş məktəblərə baş çəkirəm. Hər il "Bilik günü"ndə də uşaqlarla, müəllimlərlə görüşürəm və qeyd edirəm ki, məktəb, eyni zamanda, müəllimin iş yeridir. Bu gün bu sahədə görülmüş işlər əlbəttə ki, müəllimləri həvəsləndirir. Ona görə, təhsilin səviyyəsinin artırılması istiqamətində əlavə addımlar atılmalıdır".

Dövlət başçısı həmçinin ölkəmizdə aparılan gəncləşmə siyasətinə də toxundu. Qeyd edildi ki, gənclər çox önəmli vəzifələrə təyin olunurlar. Respublikada idarəetmə sahəsində müsbət təcrübə əldə edilib. Yaşlı nəslin təcrübəsi, gənclərin müasirliyinin, eləcə də novatorluğunun sintezi respublikanın uğurlu inkişafına təsir göstərir. Təhsil ölkənin ümumi inkişafından kənarda qalmamalı, ən müasir tələblərə cavab verməlidir. Çünki hər bir ölkənin bu günü və gələcəyi təhsillə bilavasitə bağlıdır: "Ona görə artıq 17 ildir ki, mənim təşəbbüsümlə Azərbaycanda qara qızılı insan kapitalına çevirmək prinsipi əsasında islahatlar aparılır. Bu illər ərzində tamamilə yeni, müasir nəsil yetişib və gənclər bu gün bütün sahələrdə özlərini göstərirlər. Onların fəallığı, bilikləri, müasir texnologiyalara marağı ölkəmizi gücləndirir. Bizim sərhədlərimizi də, xalqımızın əmin-amanlığını da səngərdə düşmənlə üz-üzə olan döyüş məntəqələrində gənclərimiz ləyaqətlə qoruyub və qoruyur".

### Strateji məsələ: "Qara qızıl"ın insan kapitalına çevrilməsi

Ölkəmizdə təhsilin maddi-texniki bazası böyük dərəcədə yenilənib. Ali məktəblərin əksəriyyəti müasir standartlara cavab verir. Yeni binalar, korpuslar tikilib, yeni ali məktəblər yaradılıb. Dövlət xətti ilə həyata keçirilən xərclər bu sahədə xüsusi rol oynayır.

Bir neçə il bundan əvvəl dövlət başçısının təşəbbüsü ilə Azərbaycan gənclərinin xaricdə təhsil almaları üçün xüsusi proqram qəbul edilib. Bunun çərçivəsində minlərlə Azərbaycan gənci dövlət vəsaiti hesabına xarici ölkələrin aparıcı ali məktəblərinə oxumağa göndəriliblər.

Dövlət başçısı ölkənin təbii resurslarının insan kapitalına çevrilməsinin mühüm məsələ olduğunu da diqqətə çatdırdı: "Bildiyiniz kimi, biz bu proqramı Dövlət Neft Fondunun xətti ilə həyata keçirdik. Bu da rəmzi xarakter daşıyır. Biz bu proqramı dövlət büdcəsi hesabına həyata keçirə bilərdik, ancaq mən bunu məhz Dövlət Neft Fondunun xətti ilə həyata keçirilməsinə qərar verəndə qeyd etmək istəyirdim ki, bu, strateji əhəmiyyət daşıyır. Çünki bu günə qədər Dövlət Neft Fondunun xətti ilə həyata keçirilən layihələr strateji əhəmiyyətli layihələrdir. Onların arasında, ilk növbədə, məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması layihələridir".

Azərbaycan Prezidentinin bu məsələdə də prinsipiallığı diqqəti çəkdi. Dövlət başçısı ölkəmiz, xalqımız üçün gənc kadrlardan ibarət intellektual potensial yaradılmasını strateji baxımdan düzgün qiymətləndirdi. İlk növbədə nəzərə alındı ki, gənclərimiz dünyanın aparıcı ali məktəblərində təhsil alsınlar. Onlar oxudular və öz ölkəsindən kənarda onun təbliği ilə məşğul olmağa başladılar ki, bu da əsl vətənpərvərlik nümunəsidir: "Artıq bu gün dünyada mövcud olan və fəallaşan Azərbaycan icmaları ölkəmizə də dəstəkdir. Biz də onları dəstəkləyirik. Dəfələrlə demişəm ki, bütün Azərbaycan vətəndaşları, xaricdə yaşayan azərbaycanlılar bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır. Buna görə bu müsbət təcrübə öz bəhrəsini verdi..."

Xatırlatmaq yerinə düşər ki, daha bir təşəbbüs aparıcı xarici ali məktəblərin Azərbaycanda filiallarının yaradılmasıdır. Bu da mühüm və strateji layihə hesab olunurdu. Ona görə də çox qısa müddət ərzində Azərbaycanda üç xarici ali məktəbin filialı fəaliyyətə başladı.

Bütün bu müsbət tendensiyalarla, əldə edilən uğurlarla yanaşı, dövlət başçısı təhsilimizin ümumi səviyyəsinin qaldırılmasını mühüm məsələ kimi gündəlikdə saxladı. Yeni Təhsil nazirinə bu istiqamətdə tapşırıqlarını verərkən qeyd etdi ki, təhsilli insan nə qədər çox olarsa, ölkəmizin intellektual potensialı da o qədər artacaq.

### Məktəb, peşə, sənət və novatorluq...

Digər vacib məsələ isə Dördüncü Sənaye İnqilabının mövcudluğu, dünyada gedən rəqəmsallaşma tendensiyaları ilə bağlıdır. Rəqəmsallaşma, müasir texnologiyaların geniş yayılması və tətbiq edilməsi bəzi peşələri lazımsız edir. Bu peşələr artıq aradan qalxıb və olmayacaq. Eyni zamanda, bəzi peşələrin aradan qaldırılması digər bir problem, işsizlik yarada bilər. Çünki Azərbaycan demoqrafik baxımdan inkişaf edən ölkədir, əhalisi ildənilə xeyli artır. Yeni yaradılacaq peşələr böyük bilik, savad və müasir texnologiyalar tələb edəcək.

Peşə təhsili indiki şəraitdə mühüm əhəmiyyət daşıyan məsələdir. Ona görə də dövlət başçısı xüsusi olaraq vurğuladı ki, peşə məktəbləri çox böyük hörmətə layiq olmalıdır. Son illərdə bəzi xarici tərəfdaşlarla Azərbaycanda bir neçə peşə məktəbi açılıbdır və bu peşə məktəblərinə orta məktəbdə yaxşı oxuyan uşaqlar da üz tuturlar. Bunu həvəsləndirmək vacibdir, çünki bizə peşəkar kadrlar lazımdır.

Bu gün ölkəmizdə kənd təsərrüfatının inkişafının sürəti çox yüksəkdir və bu sahəyə maraq artır. Ona görə bu sahə üzrə peşə məktəblərinin olması da vacib sayılır.

### Vətənpərvərlik bağçadakı təlim-tərbiyədən başlayır

Azərbaycan Prezidenti gənclərin milli, hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi ilə əlaqədar Təhsil Nazirliyinin çox böyük funksiyalar daşıdığını da bildirdi: "Gənclərin tərbiyə olunması, əlbəttə, ilk növbədə, ailələrdə baş verir. Mən çox şadam ki, Azərbaycan cəmiyyəti əsrlərboyu ailə dəyərlərini qoruyub saxlaya bilib... Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə olunmalı, Vətənə bağlı olmalıdırlar, Vətəni sevməlidirlər. Xüsusilə, bu gün hər bir vətənpərvər Azərbaycan vətəndaşı öz Vətəni ilə fəxr edə bilər. Azərbaycan bu gün istənilən sahədə böyük uğurlar əldə edib.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi xüsusi əhəmiyyət daşıyır. Çünki sirr deyil ki, bu gün bəzi hallarda bəzi xarici dairələr gənclərimizin beyinlərini zəhərləmək, onlara xalqımıza yad olan dəyərləri aşılamaq istəyirlər. Buna qətiyyən yol vermək olmaz. Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm..."

Dövlət başçısının da qeyd etdiyi kimi, bu, yalnız Təhsil Nazirliyinin vəzifəsi deyil. Bu prinsiplər, ilk növbədə, ailələrdə, məktəbdə, uşaq bağçasında, ali məktəbdə, orduda və cəmiyyətdə üstünlük təşkil etməlidir.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Milli Məclisin deputatı Sahibə Qafarova videokonfrans formatında seçicilərin növbəti qəbulunu keçirib





**İyulun 29-da 98 saylı Şəmkir şəhər seçki dairəsindən deputat, Milli Məclisin Sədri Sahibə Qafarova videoformat şəklində seçicilərin növbəti qəbulunu keçirib.**

Bu videoqəbulun müqəddəs Qurban bayramı ərəfəsində keçirildiyini xatırladan Sahibə Qafarova seçiciləri və onların ailələrini Qurban bayramı münasibətilə təbrik edərək ən xoş arzularını çatdırıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, videoqəbulda deputat fərdi yaşayış evinin inşası üçün həyətyanı torpaq sahəsi ilə təmin olunması və ya şəhər ərazisində sosial mənzillərin inşası, N.Gəncəvi adına şəhər tam orta məktəbinin binasının yenidən qurulması, II qrup Çernobıl əlilinin nəqliyyat vasitəsi ilə təmin olunması, Morul tam orta məktəbinin binasının inşası və bir sıra digər məsələlərlə bağlı seçicilərin müraciətlərini dinləyib.

Bildirilib ki, bundan əvvəlki videoqəbullarda seçicilər tərəfindən qaldırılan məsələlərlə bağlı müvafiq dövlət qurumlarına sorğular göndərilib, onların bir qismi artıq müsbət həllini tapıb.

Videoqəbulda Sahibə Qafarova Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə vətəndaşların həyat şəraitlərinin yaxşılaşdırılması, sosial-müdafiə tədbirlərinin həyata keçirilməsi istiqamətində görülən işlər barədə məlumat verərək deyib ki, Azərbaycanda sosial cəhətdən qayğıya ehtiyacı olan insanlara dövlət tərəfindən daim diqqət və qayğı göstərilir, onların mənzil-məişət məsələlərinin həlli, həyat şəraitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür. Milli Məclisin deputatı qeyd edib ki, müharibə veteranlarına və şəhid ailələrinə qayğı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bu sahədə icra olunan layihələr nəticəsində minlərlə insanın sosial vəziyyəti gündən-günə daha da yaxşılaşır. Dövlətin bu sahədə gördüyü işlərə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir.

Son illərdə regionlarda böyük infrastruktur layihələrinin icra edildiyini, bu layihələrin ardıcıl icrası nəticəsində ölkəmizin sürətlə inkişaf etdiyini vurğulayan spiker Sahibə Qafarova deyib ki, Şəmkir rayonunda da əhalinin elektrik enerjisi, təbii qaz, içməli su ilə təmin olunması istiqamətində mühüm işlər görülüb. Seçici müraciətlərinə cavab olaraq Milli Məclisin deputatı təhsil sahəsində də görülən işlər və əldə olunan nailiyyətlər barədə məlumat verib. Sahibə Qafarova bildirib ki, ölkəmizdə təhsilin inkişafı, müasir təhsil infrastrukturunun yaradılması dövlət tərəfindən xüsusilə diqqət mərkəzindədir. Deputat xatırladıb ki, son illərdə bu istiqamətdə çox böyük işlər görülüb, müxtəlif layihələr həyata keçirilib. 3500-dən çox məktəb ya yenidən tikilib, ya da əsaslı təmir edilib. Spiker Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu sahədəki fəaliyyətinin də xalqımız tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb. Sahibə Qafarova deyib ki, Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr ölkəmizdə təhsilin maddi-texniki bazasının yenilənməsinə mühüm töhfələr verir.

Qeyd edək ki, videoqəbulda Şəmkir Rayon İcra Hakimiyyətinin nümayəndələri də iştirak ediblər. Seçici müraciətlərində əksini tapan bəzi məsələlər yerli xarakterli olduğundan baxılması üçün icra hakimiyyətinin nümayəndələrinə yönləndirilib. Digər müraciətlərin araşdırılması üçün aidiyyəti orqanlara sorğular göndərilib.

# *Baş Nazirin müavini:* “İmişlidəki göllərdən suyun götürülərək Baş Muğan kanalına ötürülməsi prosesinə başlanılıb”

İmişlidə yerləşən antropogen göllərdə olan su ehtiyatı hesabına suvarma suyunda yaranmış çətinlik aradan qaldırıla bilər.





Hazırda bu istiqamətdə iş aparılır. İyulun 29-da Baş Nazirin müavini Şahin Mustafayev, Kənd Təsərrüfatı naziri İnam Kərimov, SOCAR-ın prezidenti Rövnəq Abdullayev, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, “Meliorasiya və Su Təsərrüfatı” ASC-nin sədr müavini Zakir Quliyev və mütəxəssislər göllərə baxış keçiriblər.

AZƏRTAC xəbər verir ki, göllərə baxış keçirildikdən sonra Baş Nazirin müavini Şahin Mustafayev jurnalistlərə müsahibə verib.

Ölkəmizdə yaranmış su probleminin aradan qaldırılması üçün Tədbirlər Planının həyata keçirildiyini bildirən Şahin Mustafayev qeyd edib ki, bu planın 1.7-ci bəndinə uyğun olaraq, ehtiyat su mənbələrinin araşdırılması və həmin su hövzələrindən səmərəli istifadə olunması istiqamətində işlər yerinə yetirilir. Tədbirlər Planına uyğun olaraq İmişli rayonunun Xubyarlı, Məzrəli və Çaxırlı kəndləri ərazisində yerləşən göllərdə, ümumilikdə, 70-100 milyon kubmetr su ehtiyatı olduğu müəyyən edilib. Həmin göllərin ərazisində karxanalar fəaliyyət göstərdiyi üçün böyük su hövzələri yaranıb. İlkin mərhələdə Xubyarlı kəndi ərazisində yerləşən göllərdəki sudan istifadə olunması nəzərdə tutulur. Bir-biri ilə əlaqəli olan beş gölün ümumi ərazisi 250 hektardır. Dərinliyi 25-30 metr olan bu göllərdə 72,5 milyon kubmetr su ehtiyatı mövcuddur. Bu mənbələr suvarma üçün tam yararlı hesab edilir.

Baş Nazirin müavini deyib ki, artıq həmin göllərdən suyun götürülərək Baş Muğan kanalına ötürülməsi prosesinə başlanılıb. Hazırda bu istiqamətdə işlər davam edir. Göl üzərində quraşdırılacaq üzən nasoslar vasitəsilə su kanala vurulacaq. İlkin mərhələdə nasoslar hesabına saniyədə beş kubmetr olmaqla, kanalın qidalandırılması nəzərdə tutulub. Eyni zamanda göllərdəki su ehtiyatının laborator müayinələri də götürülüb. Ehtiyat su mənbələri ilkin mərhələdə suvarma üçün istifadə olunacaq. Müayinələrin nəticələri məlum olduqdan sonra bu mənbələrdən içməli su kimi də istifadə edilə bilər.

“Oxşar göllər rayonun Məzrəli və Çaxırlı kəndlərində də mövcuddur. Çaxırlı kəndində yerləşən və ümumi sahəsi 52 hektar olan iki göldə 24 milyon kubmetr su ehtiyatı var. Həmçinin Məzrəli kəndində də belə iki göl var. Onların sahəsi 16 hektar, su ehtiyatı isə 7 milyon kubmetrdən çoxdur. Bu göllərin suyu hesabına rayonun əsas kanallarından olan Qızılarx və Cənubi Muğan kanalları vasitəsilə suvarma işləri yaxşılaşdırıla bilər”, - deyə Şahin Mustafayev qeyd edib.

# Dağlıq Qarabağın azərbaycanlı icması qondarma rejimin özünü yenidən “münaqişə tərəfi” kimi təqdim etməyə çalışması ilə bağlı bəyanat yayıb

“Ermənistanın müxtəlif bəhanələr altında münaqişənin mahiyyətini təhrif edən və işğalın nəticələrinin möhkəmlənməsinə hesablanmış cəhdlərini qətiyyətlə pisləyirik”.

AZƏRTAC xəbər verir ki, bu sözlər Azərbaycanın yaydığı bəyanatda əksini tapıb.

Bəyanatda həmçinin deyilir: “Belə ki, Ermənistanın əlaltısı olan qondarma rejim danışıqların formatı ilə bağlı cəfəng iddialarından əl çəkməyərək özünü yenidən “münaqişə tərəfi” kimi təqdim etməyə çalışmışdır.

Dəfələrlə qeyd etdiyimiz kimi, münaqişənin həlli üçün aparılan danışıqların formatı ATƏT-in müvafiq qərarları, o cümlədən 1992-ci il Helsinki Yekun Görüşü zamanı qəbul olunmuş sənədlərdə təsbit olunub. Bir daha bəyan edirik ki, bütün dünyanın qəbul etdiyi kimi, münaqişə tərəfləri təcavüzkar Ermənistan və təcavüzə məruz qalmış Azərbaycandır. Ona görə də qondarma qurumun öz aləmində hansısa “bəyanat” verməsi, onun “mətninin” üzərində çap edildiyi kağız parçasından da dəyərsizdir.

O ki qaldı, 1994-cü il atəşkəs məsələsinə, Ermənistan ondan ərazilərimizin işğalının möhkəmləndirilməsi üçün istifadə etmişdir. Bu dövr ərzində Ermənistan münaqişənin həll olunmasının hər vəchlə qarşısını almış, işğal etdiyi ərazilərimizdə qanunsuz fəaliyyətlə məşğul olmuş, o cümlədən qanunsuz məskunlaşdırma aparmışdır.

Ermənistanın dəfələrlə danışıqların formatını dəyişdirmək cəhdi beynəlxalq ictimaiyyət, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən rədd edilərək qətiyyətlə pislənmişdir. Lakin cəzasızlıqdan azğınlaşmış Ermənistan rəhbərliyi bu mövqeyindən əl çəkməmiş və ilhaq siyasətinə xidmət edən addımları ilə kövrək sülh prosesinə zərbə vurmaqda davam etmişdir. İyulun 12-də biz bunun bir daha şahidi olduq.

Aydındır ki, Ermənistan münaqişənin sülh yolu ilə tənzimlənməsində maraqlı deyil. Lakin Ermənistan bilməlidir ki, torpaqlarımızı işğal altında saxlaması uzun sürməyəcək. Biz istənilən halda öz dədə-baba yurdlarımıza geri dönərək, orada yaşayışımızı tam bərpa edəcəyik”.

# *DTX:* Beynəlxalq axtarışda olan şəxs Rusiyada saxlanılaraq Azərbaycana ekstradisiya edilib

Azərbaycan Respublikasının milli təhlükəsizlik maraqlarına yönələn təhdidlərin, terror-təxribat və digər pozuculuq fəaliyyətinin vaxtında aşkarlanması və qarşısının alınması, eləcə də beynəlxalq terrorçuluqla mübarizə istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən kompleks tədbirlər davam etdirilir.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, xarici xüsusi xidmət orqanlarının nəzarəti altında Azərbaycan Respublikası vətəndaşlarının seçilərək onlara radikal-ekstremist dini ideyaların aşılanması yolu ilə ölkə hüdudlarından kənarda hərbi təlimlərin keçirilməsi, şəxsiyyətləri gizlədilərək müxtəlif adlarla digər dövlətlərin ərazisindəki münaqişə ocaqlarında hərbi əməliyyatlara cəlb olunmaları barədə toplanılmış materiallar əsasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanılmış cinayət işi üzrə hazırda istintaq-əməliyyat tədbirləri aparılır.

Araşdırmalar nəticəsində Azərbaycan Respublikasının vətəndaşı Şükürov Mehdi Əflatun oğlunun ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə terrorçuluq cinayət əməllərinin törədilməsi üsulları, odlu silahlardan, partlayıcı maddələrdən və qurğulardan, eləcə də digər ümumi təhlükəli üsullardan və texniki vasitələrdən istifadə hazırlığı ilə əlaqədar təlim almasına, “Muxtar” ləqəbi ilə ölkə hüdudlarından kənarda ağır və xüsusilə ağır cinayətlər törətmək məqsədilə yaradılmış qanunsuz silahlı birləşmənin fəaliyyətində iştirak etməsinə əsaslı şübhələr müəyyən edilib.



Mehdi Şükürov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.3,214-3.1-ci (terrorçuluq məqsədi ilə Azərbaycan Respublikasından kənarda təlim keçmə) və 12.1,279.1-ci (Azərbaycan Respublikasından kənarda qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarış elan edilib.

Mehdi Şükürovun Rusiya Federasiyasının ərazisinə keçdikdən sonra gizləndiyi yer müəyyən edilib. O, beynəlxalq axtarışa dair qarşılıqlı hüquqi yardım proseduru çərçivəsində saxlanılıb və iyulun 28-də Azərbaycan Respublikasına ekstradisiya olunub.

Hazırda cinayət işi üzrə araşdırma davam edir.

# Azərbaycanda koronavirusdan daha 622 nəfər sağalıb, 363 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 622 nəfər sağalıb, 363 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 31 min 221 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 24 min 495 nəfər müalicə olunaraq sağalıb, 438 nəfər vəfat edib. Aktiv xəstə sayı 6288 nəfərdir.

Ötən müddət ərzində 708 min 632 test aparılıb. Dünənki test sayı isə 9817-dir.

# Erməni Qərb ölkələrində də ermənidir

## Mənfur tayfa iç üzünü dünyaya nümayiş etdirir

*Əvvəli 1-ci səh.*

İyulun 21-də ABŞ-ın Los-Ancelec şəhərində Azərbaycanın Baş Konsulluğunun binasının önündə 50-yə yaxın azərbaycanlı 3 minlik erməni daşnakı ilə mübarizə aparmalı oldu. Yerli polis erməni vandalizmi üzündən asayişin pozulmasının qarşısını ala bilmədi, nəticədə soydaşlarımızın bəziləri xəsarət aldılar.

ABŞ-da qazandığı “qələbə”dən ruhlanan erməni diasporu ertəsi gün Belçikanın paytaxtı Brüsseldə də eyni ssenarini işə saldı. Lakin bu dəfə Belçika Ermənilərı Təşkilatının planlaşdırdığı avantüra fiaskoya uğradı. Erməni vandallarının nümayiş keçirən azərbaycanlılara hücumu Los-Ancelesdəki qədər “səmərəli” olmadı: ermənilərlə əlbəyaxa olmaq məcburiyyətində qalan soydaşlarımız, özlərinin dediyi kimi, döyülsələr də, döydülər də.

İyulun 24-də Rusiyanın paytaxtında da erməni-azərbaycanlı qarşıdurması baş vermişdir. Erməni vandalları hesab edirdilər ki, Moskvada soydaşlarımızın “dərs”ini verə biləcəklər. Yəqin nəzərə almışdılar ki, azərbaycanlılar bu şəhərdə sayca üstün olsalar da, mütəşəkkil deyillər, kortəbii hərəkət edirlər. Amma soydaşlarımızın erməni terrorçularının ilk addımlarına reaksiyası gözlənildiyindən sərt oldu və ona görə də vandallar elə bir fəallıq göstərə bilmədilər. Bəlkə də ermənilər başa düşmüşdülər ki, bu həna o hənadan deyil: azərbaycanlıların qeyri-mütəşəkkilliyi, kortəbii hərəkətləri rəqibə baha başa gələ bilər, çünki soydaşlarımızı hansısa təşkilat idarə etmədiyindən onları dayandırmaq çətin olacaq.

Şübhəsiz, sözügedən ölkələrin hakim dairələri, hüquq-mühafizə orqanları erməni həyasızlığının daxili təhlükəsizliyi, ictimai asayişi hədəfə almasının fərqindədir. Milli qanunvericiliyi heçə sayan, vətəndaşların sərbəst toplaşma hüququnu kobud şəkildə pozan erməni diasporuna yerini göstərmək üçün lazımi tədbirlər görüləcək, əks təqdirdə ermənilərin törətdiyi hərcmərclik müşahidə ediləcək. Odur ki, istər ABŞ-da, istər Belçikada, istərsə də Rusiyada səlahiyyətli orqanlar hərəkətə keçmişdir. Bu ölkələrdə koronavirus pandemiyasının doğurduğu ağır fəsadlarla mübarizə aparan hakimiyyət orqanları erməni vandalizmi kimi pozucu təzahürə dözmək fikrində ola bilməz.

Belə bir mühüm məqamı da qeyd etmək lazımdır ki, soydaşlarımız qürbətdə etiraz aksiyaları keçirməklə kifayətlənmir, Ermənistanın təcavüzkarlıq siyasətini ifşa etmək, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün məqsədyönlü iş aparırlar. Xarici ölkələrdəki Azərbaycan icmalarının fəalları mətbuat konfransları keçirir, media orqanlarında çıxış edirlər. Diasporumuzun Vətən naminə gördüyü işlər hər cür təqdirə layiqdir.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***

# Kaliforniyanın vitse-qubernatoru Los-Ancelesdə azərbaycanlılara qarşı törədilən vəhşilikləri pisləyib

Kaliforniya vitse-qubernatoru Eleni Kunalakis iyulun 21-də ölkəmizin Los-Ancelesdəki baş konsulluğunun qarşısında erməni daşnakları tərəfindən dinc azərbaycanlılara qarşı həyata keçirilən vəhşilikləri pisləyən bəyanatla çıxış edib.







Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan məlumat verilib.

E.Kunalakis açıqlamada Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğu qarşısında keçirilən nümayişin zorakılığa çevrilməsi və insanların yaralanması ilə nəticələnməsindən məyus olduğunu bildirib. O, hər kəsin öz fikrini ifadə etmək azadlığına malik olduğunu, ancaq başqalarına qarşı zorakılığın yolverilməzliyini vurğulayıb.

Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev sözügedən hadisə zamanı Azərbaycan icmasının üzvlərinə qarşı törədilmiş vəhşilikləri pislədiyi üçün E.Kunalakisə təşəkkürünü bildirib. Baş konsul qeyd edib ki, bu cür vəhşiliklərə nə Kaliforniyada, nə də digər yerlərdə yol vermək olmaz.

Qeyd edək ki, erməni daşnaklarının Los-Ancelesdəki bu zorakılığından sonra baş konsul N.Ağayev bir sıra yerli rəsmiləri hadisə barədə dərhal məlumatlandıraraq, onları bu zorakılığı pisləməyə çağırmışdı.

2019-cu ilin yanvarından Kaliforniya vitse-qubernatoru kimi çalışan E.Kunalakis ştatda bu vəzifəyə seçilən ilk qadındır. O, həmçinin 2010-2013-cü illərdə ABŞ-ın Macarıstanda səfiri vəzifəsində çalışıb.

# Qusarlılar işğal altındakı torpaqlarımızın azad olunması üçün hər an döyüşməyə hazırdırlar





Qusarlılar işğal altındakı torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrinə hər an hazırdırlar.

AZƏRTAC xəbər verir ki, bu barədə Qusar rayon Heydər Əliyev Mərkəzində rayon ictimaiyyətinin bir qrup nümayəndələri ilə “Vətən sevgisi bizi birləşdirir” adlı tədbirdə bildirilib.

Pandemiya dövrünün tələblərinə uyğun təşkil olunan görüşdə erməni vandalizminə qarşı Azərbaycanda yaşayan bütün xalqların vahid düşüncəsini əks etdirən fikirlər səsləndirilib, Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizənin əhəmiyyətindən, Azərbaycan və ləzgi xalqlarının tarixi qardaşlığından danışılıb.

Mərkəzin direktoru Neva Abdurahmanova son günlərdə Tovuz istiqamətində gedən döyüşlərdə Azərbaycanın igid oğullarının şəhid olması ilə kiçikdən-böyüyə bütün ölkə əhalisinin səfərbər olaraq Vətənə, orduya, dövlətə dəstək nümayiş etdirdiyini qeyd edib. Habelə dünyada yaşayan soydaşlarımızın dinc yürüşlərinə erməni təxribatçılarının müdaxilələri, respublikamızda yaşayan xalqlar arasında Vətənə olan məhəbbətə kölgə salmaq istəkləri və ermənipərəst qüvvələrin başqa təxribatları haqqında ətraflı məlumat verilib.

Görüşdə rayon ziyalıları C.Nurməmmədov, V.Mehdixanov, D.İbamxəlilov, S.Xəlilov, V.Sevzixanov, X.Nağıbəyova, F.Qacabəyov respublikamızın həssas dönəmində gərəksiz təxribatlara uymadan, informasiya müharibəsində tutarlı, əsaslandırılmış fikirlərlə düşmənin susdurulmasının vacibliyindən danışıb, qusarlıların hər zaman Ali Baş Komandanımıza, dövlətçiliyimizə sədaqətlə bağlı olduqlarını bildiriblər.

# Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin təşviqi daim diqqət mərkəzində saxlanılır

Müasir dövrün və dövlət siyasətinin tələblərinə uyğun olaraq, prokurorluq işçilərinin fəaliyyətində çevikliyin, səmərəliliyin, peşəkarlığın, şəffaflığın təmin edilməsi və artırılması məqsədilə əməkdaşların nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi daim diqqətdə saxlanılmaqla, bu sahədə beynəlxalq təşkilatların müsbət təcrübələrinin öyrənilməsi istiqamətində tədbirlər görülməkdədir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cari il iyulun 24-də Avropa İttifaqının (Aİ) və Avropa Şurasının (AŞ) Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (YİT) Proqramının ikinci mərhələsi çərçivəsində “Varşava Konvensiyası müddəalarının tətbiqi” mövzusunda keçirilmiş təlim kursunda Azərbaycan Respublikası Baş Prokurorluğunun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi Vüqar Əliyev, həmin idarənin rəis müavini İsmayıl Qayıbov, Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Natiq Eyvazov, o cümlədən prokurorluğun və bir neçə hüquq-mühafizə orqanlarının əməkdaşları da iştirak ediblər.

Təlim kursuna həmçinin İqtisadi cinayətlər və əməkdaşlıq şöbəsinin rəhbəri Mustafa Ferati, habelə Avropa Şurasının ekspertləri Klaudio Stroliqo və Martin Poleyn qatılıblar.

Videoformatda keçirilmiş təlim kursu Varşava Konvensiyası ilə tənzimlənən müxtəlif istintaq hərəkətləri, çirkli pulların yuyulmasının qarşısının alınması, bu növ cinayətlərin istintaqının aparılması qaydaları, habelə aktivlərin geri qaytarılması sahəsində görülməli olan işlər, əmlakın bərpası üzrə beynəlxalq əməkdaşlığın gücləndirilməsi məsələlərini əhatə etməklə, sözügedən növ cinayətlərin törədilməsi nəticəsində leqallaşdırılmış əmlakın bərpa edilməsinə töhfə verəcək Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin yaradılmasından bəhs edilib.

Təlimin əsas məqsədi Avropa Şurasının təcrübəli ekspertləri tərəfindən çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi üzrə uğurlu təcrübə və bilik mübadiləsinin aparılması, o cümlədən gələcəkdə daha sıx əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi olub.






# Gənclik






● Gələcəyə dəstək



# Qalibiyyət üçün birlik, dəstək və məsuliyyət əsas şərtlərdir

**Son illər Azərbaycan xalqının siyasi həyatında baş vermiş bütün müsbət dəyişikliklərin, o cümlədən müstəqilliyin möhkəmlənməsində xalqın həmrəyliyi və dəstəyi həlledici mahiyyət kəsb etmişdir. Şübhəsiz ki, ölkəmizdə xalq və hakimiyyət arasında belə bir sistemli tandemin təşkili və siyasi idarəetmədə tətbiqi nümunəsinin banisi Ulu Öndər Heydər Əliyev olmuşdur.**

**"Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Çünki gələcəkdə ölkənin gələcəyi, müqəddəratı indiki gənclərdən asılı olacaqdır. Nəsillər dəyişir, ölkələr inkişaf edir. Ancaq ənənələr yaşayır, milli dəyərlər yaşayır və ölkənin hərtərəfli, uğurlu inkişafı üçün, Azərbaycan xalqının rifah halının yüksəldilməsi üçün hər bir vətəndaş, hər bir insan öz əməyini göstərməlidir. İndiki gənclər müstəqillik dövründə formalaşırlar. Bu, böyük xoşbəxtlikdir, böyük səadətdir. ...Gənclərdən bir şey tələb olunur ki, onlar yaxşı oxusunlar, bilikli, savadlı olsunlar, öz Vətəninə sadiq olsunlar və özlərinin fəaliyyəti ilə bu gün və gələcəkdə ölkəmizin inkişafına xidmət göstərsinlər".**

**İlham ƏLİYEV**

Bu tandemin təməli 1993-cü ilin 8 iyununda Azərbaycanda yaranan daxili siyasi proseslərin müstəqilliyimizi qorumaq və həmçinin dövlət idarəçiliyində düzənin pozulmasına yol verməmək məqsədilə Azərbaycan Ali Sovetinin sədri Heydər Əliyevin respublika televiziyasından xalqına müraciəti və öz növbəsində vətəndaşlarımızın Ümummilli Liderə tam dəstək nümayiş etdirilməsi ilə qoyulmuşdur. Daha sonra ölkədə hərbi-siyasi şəraitin kəskinləşməsi, o cümlədən Ermənistan silahlı qüvvələri tərəfindən təcavüzkar həmlələrin genişləndirilməsi Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli növbəti müraciəti və xalqın yekdilliklə həmin müraciətə adekvat cavab verməsi artıq xalq və hakimiyyət arasında sarsılmaz birliyin tam bərqərar olmasına rəvac vermişdir. Ulu Öndərin siyasi baxışlarını ən yüksək səviyyədə mənimsəyən və çağdaş dövrün tələblərinə uyğun onları məharətlə tətbiq edən Prezdent İlham Əliyevin siyasi strategiyası da bu baxımdan göz oxşayır. Dövlət başçısının ən mürəkkəb vəziyyətlərdə etdiyi bütün siyasi manevrlərdə yalnız xalqın dəstəyinə və inamına arxalanmaq kimi ənənəvi tendensiya yerli və dünya mətbuatının diqqətini cəlb etməkdədir.

Son günlər işğalçı Ermənistanın Azərbaycanın Tovuz rayonu ilə sərhəddə təxribatlar törətməsi, Ali Baş Komandan cənab İlham Əliyevin birbaşa nəzarəti və göstərişləri ilə Azərbaycan Silahlı Qüvvələrinin düşmənin təxribatçı həmlələrini darmadağın etməsi, atəş nöqtələrini, zirehli texnikasını, canlı qüvvəsini sıradan çıxarması xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Ordumuza dəstək ifadə etmək istəyən xalqımızın, onun gələcəyi olan gəncliyimizin üçrəngli bayrağımıza sarılaraq yürüşlərə çıxması Ali Baş Komandana, o cümlədən Silahlı Qüvvələrimizə olan sevgini və böyük inamı bütün dünyaya nümayiş etdirdi.

Lakin Azərbaycanın iki cəbhədə - işğalçı Ermənistanla bərabər, bütün dünyanı çənginə almış COVID-19 epidemiyası ilə savaşdığını nəzərə alsaq, hər bir vətəndaşın məsuliyyətli davranışı daha zəruridir. Çünki sözügedən pandemiyanın hələ məhdudlaşdırılmadığı, yoluxma hallarının yüksək olduğu bir vaxtda dəstək aksiyalarının keçirilməsi, minlərlə insanın bu hərəkata qoşulması virusun daha geniş yayılması üçün əlverişli mühit yaradır.

Doğrudur, Azərbaycanda qısa zamanda pandemiya ilə əlaqədar idarəçilik mexanizmi formalaşdırılmış, yüz minlərlə insanın sosial vəziyyətinin yaxşılaşdırılması, iqtisadi müəssisələrin qorunması üçün vəsaitlər ayrılmışdır. Bu gün koronavirus xəstələri ölkənin 35 şəhər və rayonunda yerləşən 50 xəstəxanada müalicə alırlar. Bu xəstəxanaların 36-sı Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə inşa edilmişdir. Pandemiyanın yayıldığı qısa müddətdə modul tipli xəstəxanalar istifadəyə verilmiş, əlavə olaraq koronavirusla mübarizəyə ambulator tipli müəssisələr də cəlb olunmuşdur. Ölkədə xəstəliyin müalicəsi üçün ayrılmış çarpayıların ümumi sayı 10 mindən çoxdur və bu rəqəm davamlı olaraq artırılır. Həmçinin qısa müddətdə 300-dən artıq süni tənəffüs aparatı ölkəyə gətirilmişdir. Ən müasir ECMO cihazlarının sayı artırılmış, əhaliyə evlərdə xidmətin yüksək səviyyəli təşkili üçün xaricdən sifariş olunmuş 84 avtomobil alınaraq tibb müəssisələrinə paylanılmışdır. Əgər fevral ayında koronavirus infeksiyasının müəyyən olunması üçün ölkədə cəmi 6 xüsusiləşdirilmiş laboratoriya mövcud idisə, indi laboratoriyaların sayı 30-a çatdırılıb və gündəlik test imkanları 10 mindən çoxdur. Məhz görülən işlərin, həmçinin əhalinin maarifləndirilməsinin nəticəsidir ki, son dövrlərdə yoluxanların sayında stabillik əldə edilmiş, sağalanların sayı artmağa başlamışdır.

Lakin proseslərin müsbət istiqamətdə inkişafı insanlarımızın, o cümlədən gənclərimizin məsuliyyətindən çox asılıdır. İyulun 14-də keçirilən aksiyada lazımi məsafənin gözlənilməməsi, bəzi hallarda maskalardan istifadə olunmaması, insanlar arasında sıx təmasların adi hala çevrilməsi kimi davranışlar, şübhəsiz ki, gözəgörünməz düşmənin sürətli hücumu və insanların kütləvi yoluxması ilə nəticələnə bilər.

Bu baxımdan daşıdığımız gənc ziyalı statusu üzərimizə bu məsələ ilə əlaqədar topluma davamlı maarifləndirici müraciətlər etmək kimi ümdə məsuliyyətlər formalaşdırır. Kütləvi yürüşlər hər bir Azərbaycan vətəndaşının qəlbini riqqətə gətirir. Həmçinin hər kəs şəhidlərimizi son mənzilə ehtiramla yola salmaq arzusu ilə alışır. Lakin vətəndaşların həlak olmuş hərbçilərimizin yaşadığı ünvanlara kütləvi şəkildə toplanması və onların yaxınlarını ziyarət etməsi, dəfn mərasimlərində müşahidə olunan izdiham virusun yayılma sürətini daha da artırır. Bu, daha acı nəticələrə gətirə bilər. Gözəgörünməz düşmənin məğlub edilməsi naminə hər birimiz məsuliyyətli vətəndaş olaraq qaydalara riayət etməliyik. Bununla həm də dəfn mərasimlərində iştirak edən hərbçilərimizin yoluxmasının qarşısını almış olarıq. Axı onların qarşısında vətəni qorumaq, qələbə qazanmaq kimi daha müqəddəs vəzifələr durur.

*Famin SALMANOV,*
*AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fizika üzrə fəlsəfə doktoru, dosent*

● Tribuna

# Vətəndaşlıq borcu

## "Bizim nəslin üzərinə daha çox oxumaq və mübariz ruhlu olmaq düşür"

**G.Əsgərova adına Bakı şəhər 200 saylı tam orta məktəbi 2018-ci ildə fərqlənmə ilə bitirərək, 671 balla Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq İqtisadiyyat Məktəbi fakültəsinin ingilisdilli maliyyə ixtisasına daxil olmuşam. Universitetin həm əlaçısı, həm də ən yüksək nəticələr əldə etmiş tələbələri arasında keçirilən "TOP-15" müsabiqəsinin 2 dəfə qalibiyəm.**



Təhsil ocağında oxuduğum dövrdə "Rabitəbank" ASC tərəfindən "Sosial media və texnologiyaların yeni nəslin inkişafında rolu" mövzusunda keçirilən esse müsabiqəsinin qalibi və təqaüdçüsüyəm.Eyni zamanda yay tətili müddətində bankın "Marketinq"departamentində təcrübədə olmuşam. Bir çox yüksəkreytinqli dünya universitetlərinin kurslarında iştirak edirəm, biliklərimi artırmaqdayam. Bunlarla yanaşı, paralel olaraq seçdiyim ixtisasa uyğun Beynəlxalq ACCA F3 (maliyyə uçotu) imtahanında da 91 faizlik nəticə göstərməklə sertifikatlar əldə etmişəm.

Təhsildə dil biliklərinin çox böyük əhəmiyyəti var. Təhsil ingilis dilində olduğundan rus,türk dili, eləcə də ərəb qrafikalı əski Azərbaycan əlifbasını öyrənirəm. Boş vaxtlarımda əsas hobbim kitab oxumaqdır.İqtisadi,siyasi,tarixi mövzularda olan araşdırma yazılarına xüsusi maraq göstərirəm. Dünya iqtisadçılarının elmi məqalələrini müntəzəm olaraq mütaliə edirəm.

Bütün bunları söyləməklə, heç də üzərimə düşən vəzifəni bir gənc və tələbə kimi yerinə yetirməyə çalışmağımı nəzərə çarpdırmıram. Bu gün bəşəriyyət özünün yeni iqtisadi, siyasi dönəmini yaşamaqdadır. Eramız informasiya və texnologiyaların necə mənimsənilməsi və onlardan səmərəli istifadə etməklə Yer kürəsini gözlənilən bəlalardan xilas etməkdir. Buna görə də biz gənclərin üzərinə daha çox oxumaq, bilmək və mübariz ruhlu böyümək kimi missiya düşür.

Azərbaycanın da yerləşdiyi Cənubi Qafqaz daim Avropa və əslində, dünya üçün maraqlı region olub. Burada siyasi, iqtisadi baxışlar daim toqquşub. Ona görə də istər milli, istərsə də məhəlli və ya etnik münaqişələrlə bölgəni daim təhlükə altında saxlayıblar. Dünyanın böyük gücləri hesab olunan, hegemonçuluq siyasətindən əl çəkməyənlərin iddiası respublikanı da bu münaqişələrə cəlb edib. Ermənistanın illərdir ki, əl çəkmədiyi Dağlıq Qarabağ iddiası fonunda süni şəkildə yaratdığı münaqişənin hər iki tərəfə sarsıdıcı zərbə olması danılmaz faktdır. Ermənilərin saxta göz yaşları Avropanı inandırsa da, region dövlətləri, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədr olduğu dövlətlərin rəsmiləri yaxşı bilirlər ki, Azərbaycan təcavüzə məruz qalan tərəfdir. Lakin 1994-cü ildən imzalanan atəşkəs bu gün də Ermənistan tərəfindən birtərəfli şəkildə pozulur. Təəssüf ki, dünyanın nüfuzlu beynəlxalq təşkilatları bu ikili siyasətə susqunluqla yanaşır, yaxud təcavüzkarla ərazisi işğala məruz qalanı ayırmaqda maraqlı görünmürlər. İyul ayının 12-dən başlayaraq Azərbaycanın Tovuz rayonu ərazisinə yaxın dövlət sərhədini pozan Ermənistan təxribata əl ataraq, sərhəd məntəqəsində hərbçilərimizi ağır artilleriya ilə atəşə məruz qoydu. Nəticə cavabsız qalmasa da, əsgər və zabitlərimizin, hətta generalımızın qəfil hücum nəticəsində qətlə yetirilməsi haqlı olaraq Azərbaycanın vətənpərvər gənclərini ayağa qaldırdı. Əlbəttə, bir gecənin içərisində on minlərlə gəncin öz dövlətini, torpağını düşməndən qorumağa səfərbər olması, milli hisslərin coşması bu ölkədə vətənpərvərliyin daim diqqətdə saxlanması deməkdir. Ali Baş Komandanın razılığı ilə könüllü olaraq səfərbərliyə qoşulan gəncliyimiz xalqımızın qürur hissini birəmin artırdı!

Bütün bu qürurverici hallarla yanaşı, yenə də 1990-cı illərdə olduğu kimi, Azərbaycanın inkişafını istəməyən, daxildə parçalanmaya səbəb olacaq siyasi avantüraya çağırışlar eşidildi. Xalq-hakimiyyət birliyi isə buna imkan vermədi. Mitinq-yürüşçülərin qaynar hisslərindən istifadə edən bir qrup təxribatçının çox utancverici və məyusluq yaradan hərəkətləri geniş ictimaiyyət tərəfindən pisləndi. Əlbəttə, onlar törətdikləri cinayətin məsuliyyətini daşıyacaq və layiq olduqları cəzanı alacaqlar. Belə gənclər sanki Azərbaycan mühitində deyil, hansısa bir dövlətin ideoloji silahından bəhrələndiklərini, öz ölkəsinə düşməncəsinə yanaşdıqlarını göstərdilər.

Lakin biz gənclər elələrini heç vaxt öz sıralarımızda görmək istəməzdik! Biz Vətən uğrunda canından şərəflə keçən şəhidlərimizin müqəddəs ruhlarına borcumuzu qaytarmaq üçün düşməni məhv etməliyik, gücümüzü, qüdrətimizi ön cəbhədə göstərməliyik. Buna qadirik! Ali Baş Komandanımızın söylədiyi kimi, "Biz birlikdə qalibik!"

Bu gün şəffaflıq, bürokratik maneələrin aradan qaldırılması, haqq-ədalət normalarının qorunması, vətəndaşlara layiqli xidmət Prezident İlham Əliyevin yürütdüyü siyasətin əsas istiqamətlərini təşkil edir.

*Nihad PAŞAZADƏ,*
*Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi*

● Könüllülər ilinin gəncləri

# Bizə şərəfli vəzifə tapşırılıb



**Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci il "Könüllülər ili" elan olunmuşdur. Bu qərar ölkə gəncliyinə qayğı və diqqətin, eyni zamanda böyük inam və etibarın parlaq nümunəsidir. Hər kəsə məlumdur ki, son illər ölkəmizin ictimai-siyasi və sosial həyatında könüllülər hərəkatının fəal rolu cəmiyyətdə böyük məmnunluq yaradır.**

Dövlət başçısının Mingəçevirə gerçəkləşən səfərinin yaratdığı xoş ovqat nur şəhərində görüşlərin, söhbətlərin hələ də əsas mövzusu olaraq qalır. Prezident İlham Əliyev şəhərimizdə uğurla davam etdirilən tikinti, abadlıq, quruculuq işlərini yüksək qiymətləndirməklə yanaşı, indiki çətin və qayğılı pandemiya dövründə daha fəal və məsuliyyətli olmaq, yaşlılara, əlillərə, ehtiyac duyan şəxslərə zəruri qayğı və diqqət göstərmək üçün dəyərli tapşırıq və tövsiyələrini verdi.

Mən Yeni Azərbaycan Partiyası Mingəçevir Şəhər Təşkilatı könüllülər qrupunun sədr müaviniyəm. Qrupumuz 20 nəfər gənc fəalı birləşdirir. Mingəçevir Şəhər İcra Hakimiyyəti və YAP Mingəçevir Şəhər Təşkilatı tərəfindən verilən tapışırıqları operativ qaydada və yüksək məsuliyyət hissi ilə yerinə yetirməyə çalışırıq. Koronavirusun törədə biləcəyi fəsadlara qarşı mübarizənin gərgin şəkil aldığı bu günlərdə fəaliyyətimizin əsas istiqaməti yaşı 65 və ondan yuxarı, tənha yaşayan ahıl şəhər sakinlərini qayğı ilə əhatə etməkdir. Şəhər icra hakimiyyətinin xətti ilə 450-dən çox imkansız ailəyə ərzaq yardımları, tibbi ləvazimatlar çatdırmışıq.

Fəaliyyətimizin digər istiqaməti vətəndaşlar arasında pandemiya dövrünün qaydaları ilə əlaqədar maarifləndirmə işi aparmaqdır. Hər gün müxtəlif məhəllələrdə olur, mərkəzi Operativ Qərargahın müəyyən etdiyi qaydalar barədə şəhər sakinlərini məlumatlandırırıq.

İndi çox həssas bir zamanda yaşayırıq. Gözəgörünməz virus qarşıya ciddi bəlalar çıxarıb. Bir-birimizə qarşı daha diqqətli, qayğıkeş və xeyirxah olmalıyıq. Biz könüllülər çalışırıq ki, ahıl və qocalara dəstək olaq, etdiyimiz maddi və mənəvi yardıma ehtiyac duyanlara təmənnasız xidmət edək. Bu, dövlət başçısının bizə tapşırdığı şərəfli vəzifədir.

*Cavid MƏMMƏDOV,*
*YAP Mingəçevir Şəhər Təşkilatı könüllülər qrupunun sədr müavini*

● Vətənpərvərlik tərbiyəsi

# Gənclər dövlətinin və vətəninin keşiyində hər an dayanmağa hazırdır

## Bu günlərdə 50 min nəfərdən çox Azərbaycan vətəndaşının ön cəbhəyə can atması da bunu təsdiqləyir

**Yalnız Azərbaycanın deyil, dünyanın ən qədim tarixə malik diyarı olan Dağlıq Qarabağın bütövlüyünü təmin etmək üçün gənclərimiz hər zaman dövlətin və onun başçısının yanındadır.**



Əminliklə bildirmək istəyirəm ki, Ulu Öndər Heydər Əliyevin şah əsəri olan Azərbaycanın tərəqqisi, müstəqilliyimizin möhkəmləndirilməsi və ürəyimizi dağlayan Qarabağ yarasının tezliklə sağalması yolunda YAP Yasamal Rayon Təşkilatının gənc üzvləri də Azərbaycanın digər vətənpərvər oğul və qızları kimi, hər an döyüş əmrinə hazırdır. Cənab Ali Baş Komandan İlham Əliyevin dönədönə bəyan etdiyi kimi, Azərbaycan Ermənistanın bu işğalı ilə heç vaxt barışmayacaq.

Azərbaycan Prezidenti və Silahlı Qüvvələrin Ali baş Komandanı İlham Əliyev gəncliyin vətənpərvərliyini və coşqusunu bu günlər daha böyük və dəyərli fikirləri ilə təsdiqləmişdir: "...Əlli minə yaxın Azərbaycan vətəndaşı, - onların mütləq əksəriyyəti gənclərdir, - Vətəni qorumaq üçün artıq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib, öz adlarını, ünvanlarını veriblər. Mən onlara təşəkkür edirəm. Bax, budur Azərbaycan xalqı, budur Azərbaycan gənci. Parlamentin şüşələrini, qapılarını qıran yox. Budur, bu gün Qarabağda ölümə getməyə hazır olan Azərbaycan gənci.

Mən bir daha onlara, onların valideynlərinə təşəkkürümü bildirirəm. Onlar xalqımız, dövlətimiz üçün dəyərli övladlar yetişdiriblər. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra edə bilər. Azərbaycan Ordusu tam komplektləşdirilib və əgər əlavə canlı qüvvə lazım olarsa, əlbəttə ki, biz bundan istifadə edəcəyik.

Səfərbərliyin elan edilməsinə hələ ki, heç bir ehtiyac yoxdur. Əgər lazım gələrsə, bu da olacaq. Mən demişəm, bir daha demək istəyirəm, - çox da dərinə getmək istəmirəm, - biz bilirik, nə vaxt, necə, nəyi etmək lazımdır. Biz öz siyasətimizdən əl çəkməyəcəyik. Bizim siyasətimiz ədalətli siyasətdir. Bizim siyasətimiz həm beynəlxalq hüquqa, tarixi ədalətə söykənir və biz istədiyimizə nail olacağıq".

Biz Azərbaycan övladları canımızı Vətən uğrunda - Azərbaycan yolunda fikirləşmədən qurban verərik. Ölkənin igid əsgərləri düşmən gülləsindən qorxmadan, Vətən, torpaq uğrunda şəhid olmağa, hünəriylə şanlı hərb tarixinə yeni qəhrəmanlıq səhifələri yazmağa hər an hazırdır. Yaşasın gecəligündüzlü Vətən torpağının keşiyini çəkən yenilməz Azərbaycan Ordusu! Ulu Öndər Heydər Əliyevin yandırdığı ocaq heç vaxt sönməyəcək. Şuşa, Ağdam və işğal altında olan digər torpaqlarımızı azad edib, qələbəmizi Qarabağımızda qeyd edəcəyik!

*Əsmər NƏBİYEVA,*
*YAP Yasamal Rayon Təşkilatı Gənclər Birliyinin sədr müavini*

● Xoş məram

# Pandemiya: mübarizə davam edir - böyüklərimizi qoruyaq!

**Koronavirus (COVID-19) pandemiyasının dünya çapında təsir etmədiyi bir ölkə belə qalmayıb. Dünya dövlətləri onunla mübarizə aparmaqda artıq hiss olunr ki, çətinlik çəkir. İnkişaf etmiş ölkələrin, demək olar, hamısı artıq etiraf ediblər ki, pandemiya ilə mübarizə onların milli iqtisadiyyatlarını iflic vəziyyətinə salıb.**



Ölkələr sərhədlərini bağlayıblar, bir çox iri şirkətlər profillərini dəyişərək zəruri tibbi avadanlıqlar, texnika və ləvazimatlar istehsal edirlər ki, insan ölümlərinin sayını azalda bilsinlər. Hətta bir-birinə çox yaxın olan ölkələr, təşkilatlar bu məsələ ilə bağlı müxtəlif fikirlərə, baxışlara malikdirlər: hərə öz problemlərini ayrılıqda həll edir.

Dövlət başçısı İlham Əliyevin pandemiya dövründə vətəndaşlara dəstək üçün könüllülərə etdiyi çağırışa cavab olaraq, Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllüləri də "Biz birlikdə güclüyük!" şüarı altında birləşərək sosial aksiyaya, kampaniyalara, layihələrə dəstək veriblər. Belə ki, ölkəmizin müxtəlif şəhərlərində yaşayan aztəminatlı ailələrə xeyirxah insanların, eləcə də sahibkarların təşkilatçılığı ilə 4000-dən çox ərzaq payı, ölkə daxilindəki tibb müəssisələrinə 2000-dən artıq vətəndaşın tələbatının ödənilməsi üçün zəruri dərmanlar, DİN-in A.N. Heydərov adına Respublika Hospitalı və Mərkəzi Gömrük Hospitalına COVID-19 pandemiyasından qorunmaq üçün tibbi heyətin istifadəsi məqsədilə 800 ədəd "üz sipər"ləri çatdırılıb. Tələbə-könüllülərin təşəbbüsü ilə koronavirus pandemiyası dövründə çalışan insanlara həsr olunan "Görünən və görünməyən qəhrəmanlara #birteshekkur" onlayn fləşmobu, insanlarda ruh yüksəkliyi yaratmağı əsas götürən "#hərşeyyaxşıolacaq #yenidən" aksiyası həyata keçirilib ki, bunlara da 1000-dən çox insan qoşulub.

Pandemiya dövründə dəstək verilən layihələrdə İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil nazirlikləri, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, "Azərmaş" ASC ilə könüllülərin əməkdaşlığı nəticəsində xeyli sayda ölkə vətəndaşı bu xidmət növündən nəinki yararlanıb, həm də məmnun qalıblar.

Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü proqramı milli tələbə-könüllü platformasına 23 000-dən çox tələbə-könüllü üzv olub. Onların inkişafı və asudə vaxtının səmərəli dəyərləndirilməsi üçün 6 istiqamətdə fəaliyyət göstərən proqramla indiyədək 550-dən çox yerli, eləcə də beynəlxalq tədbirə könüllü və təşkilati dəstək verilib.

Azərbaycan Prezidenti İlham Əliyev Nizami yurduna səfəri zamanı 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında, Bilgəhdə, Sumqayıtda, Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılmış modul tipli xəstəxanalarda olarkən bir daha pandemiyanın nəinki insanların sağlamlığına, eyni zamanda ölkə iqtisadiyyatına da mənfi təsirindən ətraflı söz açaraq, bu "qəfil" gələn bəladan az itkilərlə xilas olmaq üçün birgə mübarizənin əhəmiyyətini bildirdi. Dövlət başçısı haqlı olaraq insanları vətəndaş məsuliyyətinə çağırdı.

Biz könüllülərin də pandemiya dövründə üzərinə düşən əsas vəzifə məhz insanların öz sağlamlığının qayğısına qalmaları üçün təbliğat kampaniyasını genişləndirmək, ehtiyacı olanlara sosial yardımlar göstərməkdir. Bu istiqamətdə də ölkə könüllüləri var gücləri ilə çalışırlar.

Mübarizə davam edir - böyüklərimizi qorumaq, əzizlərimizə dəstək olmaq üçün!

*Nicat CƏFƏRLİ,*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, könüllü*

# Bir qrup din xadimi mükafatlandırılıb





